BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 *Humanitar elmlər seriyası* 2015

UOT 94 (479.24)

# HEYDƏR ƏLİYEV FONDU VƏ AZƏRBAYCANIN TƏRƏQQİSİNDƏ ONUN YERİ

**V.R.NƏBİYEV, R.M.MƏLİKLİ**
***Bakı Dövlər Universiteti***
***kipchak79@mail.ru***

*Məqalədə Heydər Əliyev Fondunun elm, təhsil, mədəniyyət, səhiyyə sahəsində həyata keçirdiyi layihələr və bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlığı müəllif tərəfindən geniş faktlar əsasında əks etdirilmişdir.*

**Açar sözlər:** elm, təhsil, mədəniyyət, səhiyyə

Azərbaycan xalqının milli mədəniyyətinin, milli-mənəvi dəyərlər sisteminin qorunmasında, habelə cəmiyyətdə saflıq, nəciblik, xeyirxahlıq kimi dəyərlərin təbliğində Heydər Əliyev Fondu müstəsna xidmətlərə malikdir.

Məlum olduğu kimi, Heydər Əliyev Fondunun 2004-cü il mayın 10-da müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın dahi oğlu Heydər Əliyevin doğum günündə açılış mərasimi olmuşdur. Fondun məqsədi ümummilli liderimiz Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə, ölkəmizin tərəqqisi və Azərbaycan xalqının rifahı naminə genişmiqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, milli-mənəvi dəyərlərin qorunması, Azərbaycançılıq məfkurəsinin və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım etməkdən ibarətdir.

Heydər Əliyev Fondunun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərək demişdir: «Fond Heydər Əliyev siyasi irsini öyrənəcək, onu təhlil, təbliğ və tətbiq edəcəkdir. Fondun qarşısında böyük vəzifələr durur. Fond ictimai təşkilatdır. Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında fondun rolu böyük olacaqdır.

Bu gün Heydər Əliyev bizimlə deyil, amma onun fiziki yoxluğu bizi ruhdan salmamalıdır. Onun ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəl-

səfəsi, Azərbaycançılıq fəlsəfəsi, ideologiyası yaşayır. Və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir» [1].

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondu yarandığı gündən Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bir sıra irimiqyaslı layihələrin hazırlanması və həyata keçirilməsi sahəsində mühüm addımlar atmışdır. Fondun həyata keçirdiyi «Uşaq evləri və internat məktəblərinin inkişaf Proqrammı» bilavasitə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hazırlanmışdır. Bakıda və ətraf qəsəbələrdə yerləşən uşaq evləri və internat məktəblərində mövcud olan problemlər öyrənilmiş, onların aradan qaldırılması üçün əməli işlər görülmüşdür. Fond tərəfindən səhiyyə sahəsində həyata keçirilən layihələr içərisində talassemiyanın müalicəsi və profilaktikası üçün milli proqramlar hazırlanması və həyata keçirilməsi önəmli əhəmiyyət kəsb edir.

Heydər Əliyev Fondu az bir müddət ərzində fəaliyyətini genişləndirərək beynəlxalq miqyaslı tədbirlərin keçirilməsinin təşəbbüskarlarından birinə çevrilmişdir. Belə ki, 2004-cü il iyulun 6-da fondun təşəbbüsü ilə Parisdə YUNESKO-nun iqamətgahında «Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları» mövzusunda beynəlxalq konfrans keçirilmişdir [2].

Ümumiyyətlə, Heydər Əliyev Fondunun milli maarifçilik xəttinin həyata keçirilməsi sahəsindəki əzmkar fəaliyyəti hansısa konkret çərçivə ilə məhdudlaşmır-məktəb tikintisindən tutmuş YUNESKO ilə konkret təhsil proqramlarının həyata keçirilməsinədək geniş spektri əhatə edir. Qısa müddət ərzində uğurla gerçəkləşdirilən bu layihələr cəmiyyətdə böyük rəğbətlə qarşılanmışdır. Azərbaycanın zəruri ehtiyaclarını nəzərə alan Heydər Əliyev Fondunun yeni məktəblərin tikintisi, mövcud ümumtəhsil müəssisələrinin əsaslı təmir və bərpası istiqamətində həyata keçirdiyi tədbirlər də son dərəcə təqdirəlayiqdir. İctimai əsaslarla fəaliyyət göstərən fondun ümummilli mənafelərinə hesablanmış bu tədbirlərin həyata keçirilməsində cəmiyyətdən ciddi mənəvi-maddi dəstək alınması görülən işlərin miqyasını, dinamikasını və səmərəliliyini daha da artırmışdır.

Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində ölkədə yeni məktəblərin tikintisinə başlanmış və 2005-ci ildə fondun dəstəyi ilə Azərbaycanda 132 yeni məktəb binası inşa olunmuş, 23 internat tipli müəssisənin yenidən qurulması başa çatdırılmış, 2006-cı ildə isə yüzlərlə yeni məktəb və əlavə korpusların inşası, məktəblərin əsaslı təmiri nəzərdə tutulmuşdur [3].

Bu sahə sonrakı illərdə də Heydər Əliyev Fondunun diqqət mərkəzində olmuş və «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində ölkəmizdə 2004-2007-ci illər ərzində 34 min 40 şagird yeri olan 184 məktəb binası və ayrı-ayrı təhsil müəssisələri üçün əlavə korpuslar inşa edilmişdir [4].

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva xarici ölkələrə səfərləri zamanı da təhsil məsələsini diqqətdə saxlamışdır. Belə ki, o, 2006-cı il dekabrın 7-də ABŞ-a işgüzar səfəri zamanı Ağ evdə ABŞ-ın birinci xanımı Laura Buşla görüşü zamanı da təhsil məsələ-

sinə toxunmuş və hər iki ölkənin birinci xanımları Azərbaycan-ABŞ münasibətlərinin möhkəmləndirilməsində təhsil, səhiyyə, mədəniyyət sahələrinin rolundan danışmışlar. Söhbət əsnasında Azərbaycanda Heydər Əliyev Fondu tərəfindən təhsil sahəsində həyata keçirilən layihələrin ABŞ-ın birinci xanımında xüsusi maraq doğurduğu qeyd edilmiş və bu sahədə birgə səy göstərilməsinin əhəmiyyəti vurğulanmışdır [5].

Məlum olduğu kimi Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətində xeyriyyəçilik də mühüm yer tutur. Fond Azərbaycanda həyata keçirdiyi bu missiyanı xarici ölkələrdə də uğurla davam etdirmişdir. Belə ki, 2007-ci il aprel ayının əvvəllərində Fransaya səfəri çərçivəsində YUNESKO-nun illik hesabat yığıncağında geniş məruzə ilə çıxış edən Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdən, görüləcək işlərdən danışmaqla yanaşı, Pakistanda fondun dəstəyi ilə tikiləcək Avropa standartlarına uyğun qız məktəblərindən söz açmış, XX yüzilin əvvəllərində Fransa xarici işlər nazirliyinin binası olan, lakin tarixə daha çox Versal Sülh Konfransının iqamətgahı kimi yazılan I Cahan savaşından sonra bir çox dövlətlərin öz müstəqilliklərinin təntənəsini eşitdikləri bu binanın yerləşdiyi parkdakı tarixi abidələrin təmir və bərpasına Heydər Əliyev Fondunun da qoşulmasını elan etməsi, xeyirxahlıq nümunəsi kimi qiymətləndirilmişdir [6].

Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycanın müxtəlif regionlarında onlarla tarixi-memarlıq, dini abidələr bərpa olunmuş, Bakıda məscidlər, kilsələr, sinaqoqlar təmir və bərpa olunmuşdur. Fondun təşəbbüsü ilə 2008-ci il dekabrın 27-də Bakıda dənizkənarı Milli parkda Beynəlxalq Muğam Mərkəzi açılmışdır [7]. Artıq bu mərkəzdə hər il muğam festivalı keçirilməsi ənənə halını almışdır. Azərbaycan mədəniyyətinin, mədəni irsimizin qorunması, dünyada təbliği işində də Heydər Əliyev Fondu əvəzsiz rol oynamışdır. Belə ki, milli sərvətimiz olan muğam sənəti YUNESKO-nun dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir.

Onu da qeyd etmək lazımdı ki, Heydər Əliyev Fondu öz fəaliyyətini genişləndirərək bir sıra çox nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq yaratmış, birgə layihələr icra etmişdir. Fondun tərəfdaşları arasında YUNESKO, İSESKO, UNİSEF, BMT İnkişaf Fondunu göstərmək olar. Heydər Əliyev Fondunun Rusiya, Türkiyə, Rumıniya, ABŞ nümayəndəlikləri çox uğurlu fəaliyyət göstərirlər.

2009-cu il mayın 10-da «Buta» sarayında xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının beş illiyi münasibətilə keçirilən təntənəli mərasimdə ölkə prezidenti İlham Əliyev çıxış edərək demişdir: «…Bu son beş il ərzində Heydər Əliyev Fondu, sözün əsl mənasında, ümumxalq fondu olmuşdur. Bu fondun xətti ilə aparılan işlər, görülən tədbirlər, irəli sürülmüş təşəbbüslər göz qabağındadır. İstər təhsil, istər səhiyyə sahəsində, mədəniyyət sahəsində, mənəvi irsimizin qorunması işində, Azərbaycanın dünya birliyində

qorunması işində, Azərbaycanın olduğu kimi təqdimatı işində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geniş mənada dünya birliyinə düzgün şəkildə çatdırılması işində Heydər Əliyev Fondunun rolunu mən çox yüksək qiymətləndirirəm» [8].

Yubiley tədbirindəki çıxışında fondun fəaliyyətinə toxunan Mehriban xanım Əliyeva qeyd etmişdir: «Öz adımdan təkcə onu demək istəyirəm ki, bu beş il ərzində görülən işlər bir çox sahələri-elmi, təhsili, mədəniyyəti, səhiyyəni, sosial sferanı əhatə edir. Lakin bunları birləşdirən bir amil var. Bu da Azərbaycana, Vətənə xidmət etmək arzusu və şərəfidir» [9].

Ümumiyyətlə, Heydər Əliyev Fondu 2004-2009-cu illər ərzində elm, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sahələrdə layihələr həyata keçirmiş, ictimai təşkilat kimi nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlıq əlaqələri quraraq Azərbaycandan kənarda da tanımağa başlamış, bir sıra beynəlxalq konfrans və festivallar keçirmişdir.

Göstərilən dövrdə əhalinin sağlamlığının qorunmasına da xüsusi qayğı göstərilmişdir. Belə ki, fondun xətti ilə indiyədək 10 minə yaxın insan müayinə olunmuş, müalicə kursu keçmişdir. Bu dövr ərzində 763 nəfər xəstə respublikanın müxtəlif tibb müəssisələrində cərrahiyyə əməliyyatı olunmuş, 100 nəfərdən çox xəstənin əməliyyat və müayinəsi xarici ölkələrdə aparılmışdır [10].

Qeyd etmək lazımdır ki Heydər Əliyev Fondunun çoxşaxəli, səmərəli fəaliyyətinin dünyada tanınmasında fondun prezidenti Mehriban xanım Əliyevanın rolunu xüsusi qeyd etmək lazımdır. Məhz bu fəaliyyətin nəticəsi olaraq hələ 2004-cü ildə YUNESKO-nun, 2006-cı ildə İSESKO-nun xoşməramlı səfiri adına layiq görülən, 2007-ci ildə «Qızıl ürək» beynəlxalq mükafatı, Dünya Səhiyyə Təşkilatının İnsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatı, «Əsrlərin xeyriyyəçiləri» Beynəlxalq Fondunun Yaqut Xaç ordeni ilə təltif olunmuş Azərbaycanın birinci xanımının dövlət başçısı İlham Əliyevin 2009-cu il 5 may tarixli sərəncamı ilə «Heydər Əliyev mükafatı»na layiq görülməsi isə onun fəaliyyətinin ən yüksək səviyyədə dəyərləndirildiyini göstərir.

2014-cü il may ayının 10-da Heydər Əliyev mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 10 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etdi ki, «Fonda 10 il ərzində Mehriban Əliyeva rəhbərlik edir. Onun rəhbərliyi ilə fond nəinki Azərbaycanda, eyni zamanda, regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir.

Xüsusilə fondun təşəbbüsü ilə hazırlanmış «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi bu gün geniş vüsət almışdır və dövlət bu proqrama qoşularaq son 10 il ərzində 3 minə yaxın yeni məktəb tikdirə bilmişdir.

Səhiyyə ilə bağlı təşəbbüslər geniş vüsət almışdır. Azərbaycan mədəniyyətinin, mədəni irsimizin qorunması, dünyada təbliği işində fond əvəzsiz rol oynamışdır. Bizim Milli sərvətimiz olan muğam YUNESKO-nun dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir» [11].

Mehriban xanım Əliyeva isə mərasimdəki çıxışında fondun fəaliyyətinə toxunaraq dedi: «Fond müasir Azərbaycan dövlətinin əsaslarını qoymuş, müstəqil Azərbaycanın siyasi, iqtisadi və mənəvi dirçəlişini təmin etmiş şəxsin adını daşıyır. Biz fəaliyyətimizin ilk günündən atdığımız addımlarla, gördüyümüz işlərlə bu yüksək ada layiq olmağa çalışmışıq. On il ərzində biz xeyli nailiyyətlər əldə etmişik.

Fond tərəfindən icra olunan irimiqyaslı layihələr «Yeniləşən Azərbaycana yeni məktəb», «Uşaq evləri və internat məktəblərinin inkişafı», «Təhsilə dəstək», «Diabetli uşaqlara ən yüksək qayğı», «Talassemiyasız həyat naminə», «Xocalıya ədalət», «Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması», «Tolerantlığın ünvanı Azərbaycan» və s. Bütün bu layihələrin nəticəsini biz bu gün görürük və əslində görülən bütün bu işlər Azərbaycanın ümumi inkişaf strategiyasının tərkib hissəsinə çevrilib» [12].

Ümumiyyətlə, Heydər Əliyev Fondunun həyata keçirdiyi irimiqyaslı layihələr Azərbaycanın tərəqqisinə öz layiqli töhfəsini vermişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: «Bu fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə, istənilən məsələ həll oluna bilər» [13].

## ƏDƏBİYYAT


1. «Azərbaycan» qəz. Bakı, 2004, 11 may
2. «Azərbaycan» qəz. Bakı, 2004, 7 iyul
3. «Respublika» qəz. Bakı, 2006, 8 noyabr
4. «Azərbaycan» qəz. Bakı, 2007, 15 sentyabr
5. «Azərbaycan» qəz. Bakı,2006, 7 dekabr
6. Nərman Qocatürk. İlham Əliyev. İpək yolu sivilizasiyası və Azərbaycan diplomatiyası. Bakı: Nurlan, 2008, s.472
7. «Azərbaycan» qəz. Bakı, 2008, 28 dekabr
8. «Azərbaycan» qəz. Bakı, 2009, 11 may.
9. «!Azərbaycan» qəz. Bakı, 2009, 11 may
10. «Azərbaycan» qəz. Bakı, 2009, 11 may.
11. «Azərbaycan» qəz. Bakı, 2014, 11 may.
12. «Azərbaycan» qəz. Bakı, 2014, 11 may.
13. “Azərbaycan” qəz. Bakı, 2009, 13 may.


## ФОНД ГЕЙДАРА АЛИЕВА И ЕГО МЕСТО В РАЗВИТИИ АЗЕРБАЙДЖАНА


**В.Р.НАБИЕВ, Р.М.МЕЛИКЛИ**


## РЕЗЮМЕ


В статье на основе фактов рассматривается реализация проектов по развитию науки, образования, культуры, медицины и др. областей Фондом Гейдара Алиева. Автор особое внимание уделяет деятельности фонда в расширении и сотрудничестве с различными международными организациями.



**Ключевые слова**: наука, образование, культура, медицина

**HEYDAR ALIYEV FOUNDATİON**
**AND ITS ROLE IN THE DEVELOPMENT OF AZERBAIJAN**

**V.R.NABIYEV, R.M.MALIKLI**

**SUMMARY**

The author studies the projects carried out by Heydar Aliyev Foundation in the fields of science, education, culture, medicine and its relations with a number of international organizations.

**Key words**: science, education, culture, health